# Azərbaycan din sahəsində də nümunəvi ölkəyə çevrilib





Azərbaycan İlahiyyat İnstitutu (AİI) öz fəaliyyəti, təhsil imkanları barədə ictimaiyyəti məlumatlandırmaq, 2024-2025-ci tədris ili üzrə müəssisəyə yüksək intellektli və savadlı gəncləri cəlb etmək məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli tədbirlərini davam etdirir.

Bu məqsədlə institutun əməkdaşlarının növbəti səfəri Şirvan şəhərinə olub. Şirvan Şəhər İcra Hakimiyyəti və AİI-nin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə abituriyentlər, orta məktəb müəllimləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Görüş başlanarkən dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhları birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov ölkəmizdə mövcud olan dövlət-din münasibətlərindən bəhs edib, dövlətimizin milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə göstərdiyi xüsusi diqqətdən söz açıb.

AİI rektoru, dosent Aqil Şirinov ölkəmizdə dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulduğunu, din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çardırıb. Bildirib ki, bu sahədə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müdrik siyasi xətti hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Rektor vurğulayıb ki, ölkəmiz bütün sahələrdə olduğu kimi, din sahəsində də nümunəvi ölkəyə çevrilib. Rektor ali təhsil müəssisəsi haqqında geniş məlumat verərkən vurğulayıb ki, institutda qarşılıqlı etimada əsaslanan şəffaf müəllim-tələbə münasibətləri hökm sürür. Ali təhsil müəssisəsində tədrisin keyfiyyətinin artırılması, təhsilalanların fənlər üzrə bilik və bacarıqlarının inkişafı istiqamətində səylə fəaliyyət göstərilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Şirvan bölgəsi üzrə şöbə müdiri Sənan Xəlilov dövlət-din siyasətindən, komitənin bu sahədə gördüyü işlərdən bəhs edib.

Ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov AİI-yə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib.

Tədbirdə AİI-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 18 aprel, № 77.- S.12.